İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

6 №-li PALATA

ANTON ÇEXOV

Rus dilindən tərcümə:

Zahid Sarıtorpaq

parlaq İMZALAR

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktor:	Toğrul MUSAYEV
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	İsmayıl SÜLEYMANLI
İllüstrator:	Leyla NOVRUZOVA
Cildin dizayneri:	Ramin HƏSƏNƏLİZADƏ

Антон Павлович Чехов
ПАЛАТА № 6

Anton Pavloviç Çexov
6 №-li PALATA

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 136 səh. / IV nəşr

© Антон Павлович Чехов / 1892
© Parlaq İmzalar MMC / 2019
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 83
Yoldaş seriyası | 1

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Anton Çexov 1860-cı il yanvarın 29-da Taqanroq şəhərində anadan olub. 1879-cu ildə Moskva Universitetinin Tibb fakültəsinə daxil olub. 1884-cü ildən başlayaraq yazıçı müxtəlif xəstəxanalarda həkim vəzifəsində işləyib. İlk iki hekayələr toplusu – "Rəngarəng hekayələr" və "Ala-qaranlıqda" 1886-1887-ci illərdə çap olunub.
Çexov 26 il ərzində irili-xırdalı 900-ə yaxın əsər yazıb. Onlardan bir neçəsi dünya ədəbiyyatının klassikasına çevrilib: hekayələrindən "6 №-li palata", "Qılaflı adam", "Məmurun ölümü", "Qüssə", "Qara rahib"; pyeslərindən "Albalı bağı", "Üç bacı", "Qağayı" və s.
Yazıçı 1901-ci ildə aktrisa Olqa Knipperlə ailə həyatı qurub. 1904-cü ildə yoldaşı ilə birlikdə Badenveyler kurortuna müalicəyə gedib və orada da dünyasını dəyişib.

Zahid Sarıtorpaq 1957-ci il mayın 11-də Şamaxı şəhərində anadan olub. 1981-87-ci illərdə Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. "Üfürülmüş çırağın ruhu", "Tək işığın haləsi" şeirlər kitabının və "Əlifba bayramında qətl", "Dərdin sarı çəpkəni", "Kül", "Qarğa marşrutu", "Quşların intiharına ağlamayın", "Köhnə mücrüyə elegiya" romanlarının müəllifidir.
Zahid Sarıtorpaq ingilis klassiki Con Miltonun "İtirilmiş cənnət" və "Qaytarılmış cənnət" epopeyalarını, Artur Rembonun, Fransua Moriakın seçilmiş əsərlərini tərcümə edib. Bundan əlavə, V. Skott, C. Coys, M. Prust, Qöte, C. Steynbek, B. Pasternak və bir sıra başqa dahilərin əsərlərindən nümunələr onun tərcüməsində Azərbaycan dilində işıq üzü görüb.

I

Xəstəxananın həyətində dörd tərəfini ayıpəncəsi, gicitkən və çətənə kolları bürümüş kiçik bir fligel[1] var. Onun dəmir damı pas atıb, novçalarının yarısı qırılıb-tökülüb, kandarındakı çürümüş pillələri ot-alaf basıb, divarlarında isə yalnız suvağın izləri qalıb. Üzü xəstəxanaya baxan bu tikilinin arxası çölə tərəfdir. Üstünə mismarlar vurulmuş bozumtul hasar fligeli çöldən ayırır. İti ucları üzüyuxarı çalınmış bu mismarlar da, hasar da, elə bu fligelin özü də yalnız lənətə gəlmiş xəstəxana, həbsxana tikililərinə məxsus miskin və kədərli bir görkəmdədir.

Gicitkənin dalayıb-yandırmasından qorxmursunuzsa, onda fligelə aparan bu dar cığırla gedək və içəridə nələr baş verdiyinə bir nəzər salaq. Birinci qapını açıb dəhlizə giririk. Burada divarın dibində, sobanın yanında xəstəxana tör-töküntüləri qalaqlanıb. Döşəklər, köhnə, cırıq xalatlar, şalvarlar, göy zolaqlı yararsız köynəklər, yırtıq ayaqqabılar – bütün bu köhnə-kürüş şeylər üst-üstə yığılıb, əzilib, bir-birinə qarışıb çürüyür və ətrafa kəsif qoxu yayır.

1. Əsas binanın yanında tikilmiş ev və ya əlavə tikili – Tərc.

Gözətçi Nikita damağında çubuq daim bu tör-töküntünün üstünə sərələnir. O, sırıqlısının güləbətini, baftası çoxdan pas atıb saralmış, ordudan tərxis olunmuş keçmiş bir əsgərdir. Sallaq qaşlı, sərt cizgili acıqlı sifətindən və qıpqırmızı pörtmüş burnundan çoban itinə oxşayır. Bəstəboy, arıq bədəninin damarları çıxmış zəhmli görkəmi və iri, yekəpər yumruqları var. Nikita sadəlövh, avam, üzüyola, küt zümrəyə məxsus birisidir. Belələri dünyada hər şeydən çox nizam-intizamı sevir və bu əqidədədirlər ki, ona əməl etməyənlər lazımınca çırpılmalıdırlar. O, əlinə keçən hər şeylə adamların sifətinə, sinəsinə, kürəyinə vurur və inanır ki, belə eləməsə, burada qayda-qanun yaratmaq olmaz.

Dəhlizdən keçəndən sonra fligelin özü boyda böyük və geniş bir otağa daxil olursunuz. Burada divarlar bulanıq-mavi rənglə boyanıb, bacasız daxmalardakı kimi tavan his içindədir, belə məlum olur ki, burada qışda sobalar tüstü buraxır və otaqda dəm olur. Barmaqlıqları içəridən vurulduğuna görə pəncərələr eybəcər görünür. Döşəmə bozarıb və köhnəlib. Buradan turşumuş kələm, piltə yanığının iyi, taxtabiti və ammiak qoxusu gəlir, ilk dəqiqələrdə bu üfunət sizdə elə təəssürat yaradır ki, sanki tövləyə daxil olmusunuz.


Otaqda döşəməyə vintlə bərkidilmiş çarpayılar qoyulub. Əyinlərinə göy rəngli xəstəxana xalatı geymiş, başlarına qədimlərdə dəbdə olan qalpaqlar qoymuş adamlar bu çarpayılarda oturub və uzanıblar. Bunlar – dəlilərdir.

Cəmisi beş nəfərdir. Yalnız bircəciyi əsil-nəcabətli zadəgan, qalanları meşşandır. Qapıdan birinci çarpayıda ucaboylu, arıq, parıltılı kürən bığları olan, gözləri daim yaşla dolu meşşan başını əlləri arasına alıb, baxışlarını bir nöqtəyə zilləyərək oturub. O, gecə-gündüz dərd-qəm içində başını yırğalayır, ah çəkərək acı-acı gülümsünür, söhbətlərə nadir hallarda qoşulur, adətən suallara cavab vermir. Arada şüursuz halda yeyib-içir, o da təklif ediləndə. Əzablı öskürəyindən, yanaqlarının arıqlığı və qırmızılığından vərəmə tutulduğu bilinir.

Ondan oyankı çarpayıda balacaboy, diribaş, cod saqqallı, zəncilərdəki kimi qara, qıvrım saçları olan zirək bir qoca var. Gündüzlər o, palatadakı pəncərələr arasında var-gəl edir və ya yatağında türklər kimi bardaş qurub oturur, qarquşu kimi dayanmadan fit çalır, astadan zümzümə edir, hırıldayır. Həm də gecələr Tanrıya dua etmək üçün duranda, sinəsini yumruqlayıb, qapıları barmağıyla qurdalayanda uşaq kimi şən və qıvraq olur. Bu, cuhud Moyseykadır – iyirmi il qabaq şapka emalatxanası yananda havalanıb və dəli olub.

6 №-li palatada məskunlaşanlar arasından fligeldən kənara, hətta xəstəxana həyətindən küçəyə çıxmağa təkcə ona icazə verilir. Görünür, xəstəxananın köhnə sakini olduğuna görə bu üstünlüyü qazanıb. Adamlar onu sakit, ziyansız bir dəli, şəhər təlxəyi kimi küçələrdə balaca oğlanların və itlərin əhatəsində görməyə vərdiş edib. Əynində xalat, başında gülməli bir qalpaq, ayaqlarında tufli, bəzən də ayaqyalın, hətta tumançaq





halda küçələrdə dolaşır, darvazaların, dükanların qarşısında dayanıb qəpik-quruş dilənir. Biri ona kvas verir, digəri – çörək, bir başqası – xırda pul. Beləliklə, o, fligelə adətən tox və cibidolu qayıdır. Gətirdiklərini isə Nikita bircə-bircə tutub əlindən alır. Köhnə əsgər bunu çox kobudluqla, özü də bilərəkdən edir, onun ciblərini çevirir, Tanrıya and içir ki, bir də bu cuhudu küçəyə buraxmayacaq, çünki ondan ötrü qayda-qanun pozuntusu dünyada hər şeydən pisdir.

Moyseyka xidmət etmək aşiqidir. Yoldaşlarına su verir, yatanda üstlərini örtür, hamıya küçədən xırda pul gətirməyə, hər kəsə təzə şapka tikməyə söz verir, həm də sol tərəfindəki iflic qonşusuna qaşıqla yemək yedizdirir. Göstərdiyi bu xidmətlər heç də rəhmli olduğuna, adamlara canı yandığına görə deyil. O sadəcə sağ tərəfindəki qonşusu Qromovu yamsılayır, ixtiyarsız ona tabe olduğu üçün belə edir.

Otuz üç yaşlı əsilzadə, keçmiş məhkəmə pristavı və quberniya katibi İvan Dmitriç Qromov təqibolunma maniyasından əziyyət çəkir. Gah yataqda yumaq kimi yumurlanır, gah da gəzinti adıyla bu küncdən o küncə var-gəl edir, nadir hallarda isə oturur. O həmişə gərginlik içində, həyəcanla məchul və anlaşılmaz bir intizar çəkir. Dəhlizdə cüzi bir xışıltı və ya həyətdə adi bir qışqırıq səsi eşidilən kimi başını qovzayıb dinləməyə başlayır: onunmu arxasınca gəliblər? Onumu axtarırlar? Bu zaman üz-gözündə son dərəcə narahatlıq və nifrət hissi dolaşır.



Onun daim solğun, bədbəxtlik saçan enli və sümüklü sifətindən xoşum gəlir, çünki mübarizələrdən və bitib-tükənməyən sarsıntılardan əzab çəkən ruhunu güzgü kimi əks etdirir. Üzünün ifadələri qəribə və ağrılıdır. Amma üzündəki dərin, səmimi iztirabın saldığı zərif cizgilər onun ağıllı bir ziyalı olduğunu bildirir, gözlərində həlim və saf bir parıltı var. Nikitadan başqa hamıyla son dərəcə nəzakətli davrandığına, qanacaqlı və xidmətsevər olduğuna görə ondan xoşum gəlir. Kiminsə düyməsi, qaşığı yerə düşəndə cəld yataqdan sıçrayır, götürüb yiyəsinə verir. Hər səhər yoldaşlarına xeyirli sabahlar, gecələr isə şirin yuxu arzulayır.

Həmişə gərgin vəziyyətdə olmasından və ağız-burun əyməsindən başqa, onun dəliliyini bildirən həm də budur: bəzən axşamlar xalatına möhkəmcə bürünür, bütün bədəni əsim-əsim əsir, dişləri bir-birinə dəyə-dəyə çarpayılar arasında o küncdən bu küncə var-gəl eləyir. Baxanda elə bilirsən, qızdırmadan yanır. Qəfil dayanıb yoldaşlarının üzünə baxmağından adama elə gəlir indicə vacib nəsə deyəcək, amma, görünür, ağlı kəsir ki, onu dinləyən olmayacaq və ya başa düşməyəcəklər, səbirsizcə başını yelləyib gəzişməsinə davam edir. Ancaq içindəkiləri demək istəyi hər cür düşüncəsini üstələyincə özündə iradə tapıb odlu və ehtiraslı şəkildə danışmağa başlayır. Nitqi nizamsızdır, sanki qızdırmalı adam kimi sayıqlayır, dedikləri kəskin və aydın da deyil. Amma səsindən, sözündən nəsə fövqəladə yaxşı şeylər dediyi duyulur. O danışanda siz həm

bir dəlini, həm də bir insanı tanımağa başlayırsınız. Onun dəlicəsinə etdiyi nitqi kağızda yazıb ötürmək çox çətindir. O, insanların rəzilliyindən, haqqı tapdalayan zorakılığından danışır, yer üzündə gün-güzəranın get-gedə gözəlləşəcəyini bildirir, hər an ona zalımların qəddarlığını və kütlüyünü xatırladan pəncərə barmaqlıqları haqda söhbət açır. Dedikləri isə köhnə və ala-yarımçıq oxunmuş mahnıların rabitəsiz bir həftəbecərinə oxşayır.